

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 23 yanvar 2021-ci il, şənbə / № 013 (5869). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Azərbaycanla Türkmənistan arasında "Dostluq" yatağı üzrə sazişin imzalanması tarixi hadisədir



*Prezident İlham Əliyev: Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

## Fevralın 1-dən tədris və təlim-tərbiyə prosesi mərhələli şəkildə əyani formada təşkil olunacaq




Nazirlər Kabineti Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər barədə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, Qərara əsasən:

1. Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2021-ci il 1 fevral tarixindən tədris və təlim-tərbiyə prosesinin əyani formada təşkili sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarına əsasən təhsil pillələri və səviyyələri üzrə mərhələli şəkildə təmin edilsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bu Qərarın 1-ci hissəsinə uyğun olaraq tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edildiyi halda, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri də tabeliklərində olan təhsil müəssisələrinə münasibətdə eyni qərarlar qəbul edirlər;

2.2. xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun tənzimlənir.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərardan irəli gələn digər məsələləri həll etsin.




## AZƏRBAYCANDA KORONAVİRUSDAN 632 NƏFƏR SAĞALIB, 280 YENİ YOLUXMA FAKTI QEYDƏ ALINIB

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 632 nəfər müalicə olunaraq sağalıb, 280 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 228 min 526 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 219 min 19 nəfər müalicə olunaraq sağalıb, 3064 nəfər vəfat edib. Aktiv xəstə sayı 6443 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 347 min 951 test aparılıb. Bugünkü test sayı isə 6144-dür.

## ADA Universiteti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və səmərəli təşkili mövzusunda sosioloji tədqiqat layihəsini həyata keçirəcək

Azərbaycan Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsində qalib gələrək tarixi uğura imza atıb. Bu tarixi uğur, eyni zamanda, ölkəmizin gələcək inkişafı üçün yeni bir dövrün başlanğıcıdır. Məhz buna görə də, işğaldan azad edilmiş torpaqlarımızın bərpası və həmin yerlərdə hərtərəfli inkişafın təmin edilməsi prioritet vəzifələrdən biridir.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Qərargahın nəzdində müxtəlif işçi qruplarından ibarət İdarələrarası Əlaqələndirmə Mərkəzi fəaliyyət göstərir.

Bu işçi qruplarından biri olan Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupunun əsas fəaliyyət istiqaməti işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesi ilə bağlı elmi tədqiqatların və təhlillərin aparılmasıdır. İşçi qrupu müxtəlif elmi dairələr və tədqiqat mərkəzlərini təmsil edən tanınmış alimlərdən ibarətdir.

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərə qayıdışla əlaqədar məcburi köçkünlər arasında sorğular keçirilməsi və onların niyyətinin öyrənilməsi barədə müvafiq tapşırıq verdiyini bildirib. Qarşıdan gələn dövrdə məsələ ilə bağlı ümumi rəyin müəyyənləşdirilməsi, həmin ərazilərə qayıdanların ehtiyaclarının, onların bərpa işlərində iştirak imkanlarının, sahibkarların işğaldan azad olunmuş ərazilərə cəlb edilməsi şərtlərinin öyrənilməsi məqsədilə məcburi köçkünlər, habelə sahibkarlar arasında sorğuların keçirilməsi planlaşdırılır.

Qeyd olunan layihənin ADA Universiteti nəzdində yaradılan xüsusi tədqiqat qrupu tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə layihəyə universitetin akademik heyəti ilə yanaşı, bir sıra nüfuzlu yerli və beynəlxalq beyin mərkəzləri və elmi tədqiqat institutları, habelə ayrı-ayrı tanınmış alim və mütəxəssislərin cəlb olunması planlaşdırılır.

Sorğuların keçirilməsi ərəfəsində və onların nəticələri ilə bağlı KİV-də və sosial mediada müvafiq məlumatlar mütəmadi şəkildə təqdim ediləcəkdir.

Tədqiqata hazırlıq məqsədilə ADA Universitetində keçirilmiş görüşdə universitetin rektoru Hafiz Paşayev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi - Akademik və Təhsil Məsələləri üzrə İşçi Qrupunun rəhbəri Emin Hüseynov və qrupun digər üzvləri iştirak ediblər.

Görüşdə sözügedən sosioloji tədqiqatın həyata keçirilməsi ilə bağlı görüləcək işlər, sorğuların hazırlanması və aparılması zamanı diqqət yetirilməli olan məqamlar və digər aidiyyəti məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Yaxın zamanlarda müvafiq sorğuların keçirilməsinə başlanması nəzərdə tutulur.

## Koronavirus xəstələrinin vəziyyətinin ağırlaşmasına səbəb olan əsas səhvlər hansılardır?

Yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma zamanı xəstəliyi yüngül keçirənlər ev şəraitində müalicə alırlar. Təəssüf ki, həmin xəstələrin müəyyən hissəsi evdə müalicə olunarkən şəfa tapmaq üçün kimdənsə eşitdiyi, yaxud da sosial şəbəkələrdə paylaşılan hansısa resept və üsullardan, türkəçarələrdən istifadə edir. Təcrübə göstərir ki, ağırlaşmaların başlıca səbəbi çox vaxt bununla əlaqədar olur. Məsələ ilə bağlı qəzetimizə açıqlama verən həkim-terapevt Sevil Hacıyeva koronavirus xəstələrinin vəziyyətinin ağırlaşmasına səbəb olan...

Bax səh. 4

## Milli Məclisdə "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması məqsədilə onlayn videokonfrans keçirilib

Yanvarın 22-də "Ali təhsil haqqında" Azərbaycan Respublikasının qanun layihəsinin hazırlanması məqsədilə yaradılmış işçi qrupunun videokonfrans formatında görüşü keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, parlamentin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə keçirilən konfransda Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Milli Məclisin elm və təhsil komitəsinin...



Bax səh. 3

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Korkutname" kitabının təqdimatı keçirilib

Yanvarın 21-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda TÜRKSOY tərəfindən nəşr olunun Türkiyənin milli şairi Kənan Çarboğanın "Korkutname" kitabının təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, kitab türk dünyasının ortaq irsi hesab olunan "Kitabi-Dədə Qorqud" dastanı əsasında nəzmə alınıb. Tədbiri giriş sözü ilə açan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qonaqları salamlayaraq, rəhbərlik etdiyi təşkilatın binasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı əsasında daimi istifadəyə verildiyini bildirib. Fondun prezidenti binanın rəsmi açılışının 2019-cu il oktyabrın 14-də Türkdilli ölkələrin dövlət başçılarının VII Zirvə toplantısı çərçivəsində...



Bax səh. 2

# Azərbaycanla Türkmənistan arasında “Dostluq” yatağı üzrə sazişin imzalanması tarixi hadisədir

## *<u>Prezident İlham Əliyev</u>: Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq*

*Xəbər verildiyi kimi, 21 yanvar 2021-ci il tarixində Aşqabad şəhərində “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu” imzalanıb və bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib. Görüşdə Azərbaycanla Türkmənistan arasındakı siyasi dialoqun bugünkü yüksək səviyyəsindən, hər iki ölkənin beynəlxalq səviyyədə bir-birinə qarşılıqlı dəstək göstərməsindən məmnunluq ifadə olunub. Bildirilib ki, siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq hər iki dövlət öz imkanlarını təqdim edərək birgə səylərlə regional əməkdaşlığın möhkəmlənməsinə, Avrasiyanın nəqliyyat və enerji xəritəsinin yenidən formalaşmasına sanballı töhfələr verir. Azərbaycanla Türkmənistan karbohidrogen ehtiyatları ilə zəngin olan “Dostluq” yatağı üzrə bəhs olunan sənədi imzalamaqla Xəzərdə beynəlxalq hüquqa əsaslanan və hər iki ölkənin maraqlarına cavab verən yeni fəaliyyətin əsasını qoyublar. Görüşdə “Dostluq” yatağının birgə işlənməsinin önəminə diqqət çəkən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb:* ***“Mən bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək”.***



### AZƏRBAYCAN HƏR ZAMAN XƏZƏR DƏNİZİNDƏ ƏMƏKDAŞLIQ VƏ SABİTLİK MÜHİTİNİN FORMALAŞDIRILMASINA BÖYÜK SƏY GÖSTƏRİB

Bu gün Xəzəryanı ölkələr arasında möhkəm hüquqi bazanın olduğunu söyləmək mümkündür. Bu platformanın yaradılmasında və funksionallığının təmin olunmasında Azərbaycanın rolu əvəzsizdir. Məlumdur ki, Xəzərin hüquqi statusu ilə bağlı sahil dövlətlərinin görüşləri 1992-ci ildən etibarən keçirilməyə başlayıb. Azərbaycan Respublikası hər zaman Xəzərdə dialoq, qarşılıqlı anlaşma, əməkdaşlıq və sabitlik mühitinin formalaşdırılmasına böyük səy göstərib və dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün ilk təşəbbüs göstərən ölkələrdən biri kimi çıxış edib. Bu səylər Xəzər dənizində bölgü məsələləri üzrə bütün sahilyanı ölkələrin mövqelərinin yaxınlaşdırılmasına və ümumi razılığın əldə edilməsinə xidmət göstərib. Xəzər dənizində bölgü məsələləri üzrə sahilyanı ölkələr arasında dialoq üçün iki və çox tərəfli formatlara üstünlük verilib. Bu çərçivədə 29 noyabr 2001-ci il tarixində “Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Saziş”, 23 sentyabr 2002-ci il tarixində “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Saziş” və 14 may 2003-cü il tarixində “Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında Saziş”in imzalanmasına nail olunub. Bundan başqa, Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsi üzrə razılaşma əldə edilib ki, bu da öz növbəsində, bütün sahilyanı ölkələr arasında Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi üzrə beştərəfli formatda aparılan prosesə güclü təkan verib. Xəzəryanı dövlətlər arasında qarşılıqlı kompromis və mövqelərin yaxınlaşması nəticəsində 12 avqust 2018-ci il tarixində “Xəzər dənizinin hüquqi statusu haqqında” Konvensiya imzalanıb. Prezident İlham Əliyev Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsinin önəminə diqqət çəkərək **“Xəzəryanı ölkələr xoş məram, siyasi iradə nümayiş etdiriblər. Çoxillik uzun diskussiyalardan sonra enerji resurslarının mənimsənilməsi, habelə Xəzərin qorunması üzrə birgə fəaliyyət üçün ölkələrə yeni imkanlar açan Konvensiya razılaşdırılıb. Biz birgə səylərimizlə bundan sonra da xalqlarımıza bu qədər nemətlər bəxş edən bu nadir su hövzəsini qorumaq üçün nə lazımdırsa etməliyik”,** - deyə vurğulayıb.

> *“Çoxillik uzun diskussiyalardan sonra enerji resurslarının mənimsənilməsi, habelə Xəzərin qorunması üzrə birgə fəaliyyət üçün ölkələrə yeni imkanlar açan Konvensiya razılaşdırılıb. Biz birgə səylərimizlə bundan sonra da xalqlarımıza bu qədər nemətlər bəxş edən bu nadir su hövzəsini qorumaq üçün nə lazımdırsa etməliyik”*

Məlum olduğu kimi, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1994-cü il sentyabrın 20-də Bakı şəhərində bütün dünyada məşhur olan transmilli şirkətlərlə Xəzər dənizində neft yataqlarının işlənilməsi və hasilatın pay bölgüsü haqqında tarixə “Əsrin müqaviləsi” kimi düşən sənəd imzalandı. “Əsrin müqaviləsi”nin imzalanması Xəzərin mineral sərvətlərindən istifadə üçün dünyanın aparıcı neft şirkətlərinin və xarici investisiyaların cəlb edilməsi üzrə çox mühüm siyasi addım olmuş, bu istiqamətdə dənizdə beynəlxalq əməkdaşlığa yol açılmışdır. “Əsrin müqaviləsi”ndən sonra Xəzər dənizinin zəngin resurslarının işlənməsinə dair yeni kontraktlar imzalandı. Hazırda əksər region dövlətləri, eləcə də Avropanın ayrı-ayrı ölkələri özlərinin enerji təhlükəsizliyini respublikamızın təşəbbüsü və fəal iştirakı ilə yaradılan şaxələndirilmiş mənbələr və dəhlizlər vasitəsilə təmin edirlər.

### “DOSTLUQ” YATAĞININ İŞLƏNMƏSİ LAYİHƏSİ XƏZƏRİN KARBOHİDROGEN RESURSLARININ MƏNİMSƏNİLMƏSİNDƏ YENİ SƏHİFƏ AÇIR

Azərbaycanda neft sənayesinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çox haqlı olaraq Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-ci illər Xəzər dənizində yeni yataqların kəşf olunması, ölkəmizin neft emalı, neft-kimya sənayesinin yenidən qurulması və modernləşdirilməsində dönüş mərhələsi kimi dəyərləndirilir. Ötən əsrin yetmişinci illərinə qədər Xəzərdə istifadə olunan texniki vasitələr yalnız dənizin dərinliyi 40 metrə qədər olan sahələrində işləməyə imkan verirdi. 1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə respublikaya dəniz yataqlarının işlənilməsi üçün yeni müasir avadanlıqlar - qazma qurğuları, borudüzən gəmilər, 2500 ton yük qaldıra bilən “Azərbaycan” kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər və başqa texniki vasitələr gətirilib. 1970-ci ildə “Xəzərdənizneft” İstehsalat Birliyi (İB) yaradılıb və keçmiş SSRİ Neft Sənayesi Nazirliyi Xəzərin bütün sektorlarında geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər əməliyyatların aparılmasını Azərbaycan neftçilərinə həvalə edib. Dənizin 200 metr dərinliyindəki sahələrdə işləyə bilən “Şelf” tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaranıb. Beləliklə, 1975-ci ildə “Bulla-dəniz” yatağının işlənilməsinə başlanıb, 1979-cu ildə “Günəşli”, 1985-ci ildə “Çıraq”, 1988-ci ildə “Azəri” yatağı aşkar edilib. Ümumiyyətlə, Xəzər dənizində geoloji-kəşfiyyat işlərinin aparılması, yeni yataqların aşkarlanması bilavasitə Azərbaycan neftçilərinin, geoloqlarının adı ilə bağlıdır. Xoşbəxt Yusifzadə, Qurban Abbasov, Bəhmən Hacıyev və digər neftçilərimiz bu işdə böyük rol oynamışlar.

Azərbaycanın “Kəpəz”, Türkmənistanın isə “Sərdar” adlandırdığı yataq zəngin neft-qaz ehtiyatlarına malikdir. Sonradan rəmzi olaraq “Dostluq” adı verilən bu yataq iki ölkənin dəniz sərhədində yerləşir. Yataq keçmiş SSRİ dövründə Azərbaycan neftçiləri tərəfindən 4 kilometr dərinliyindəki layda kəşf olunub və 1989-cu ildə orada ilk kəşfiyyat quyusu qazılıb.

> *“Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq”*

Keçmiş SSRİ dövründə bu yataq Azərbaycanla Türkmənistanın dənizdəki sərhədinin tən ortasında yerləşdiyi üçün “Promejutoçnoe”, yəni “Aralıq” adlandırılıb.”Dostluq” yatağı bizim neftçilər tərəfindən kəşf olunsa da, Azərbaycanla Türkmənistanın dənizdəki sərhədində yerləşdiyinə görə, uzun illər onun işlənməsi mümkün olmayıb və məsələ ilə bağlı ardıcıl danışıqlar aparılıb. 1998-ci ildə Xəzər dənizinin orta xətt koordinatları üzrə Azərbaycanla Türkmənistan arasında danışıqlar aparılması üçün ekspert qrupu yaradılıb. Bu məqamda vurğulamaq yerinə düşər ki, dövlət başçıları arasında ardıcıl təmaslar, qarşılıqlı səfərlər iki dost ölkə arasında bütün məsələlərin hər iki tərəf üçün qənaətbəxş səviyyədə həlli məqsədilə etibarlı zəmin formalaşdırıb. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin 28-29 noyabr 2008-ci il, 21-22 noyabr 2018-ci il, 10 oktyabr 2019-cu il tarixlərində Türkmənistana səfərləri baş tutub. Eləcə də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov 19-20 may 2008-ci il, 18 noyabr 2010-cu il, 12 iyun 2015-ci il, 8-9 avqust 2017-ci il, 25 oktyabr 2019-cu il, 11 mart 2020-ci il tarixlərində ölkəmizdə səfərdə olub.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev bundan əvvəl respublikamızın neft-qaz hasilatı, nəqli, ölkəmizin enerji potensialının daha da yüksəldilməsi istiqamətində yeniliklərin olacağını anons etmişdi. “Dostluq” yatağının işlənməsi üzrə memorandumun imzalanması ilə dövlət başçısının verdiyi mesaj həyatda öz təsdiqini tapdı. Bu layihə Azərbaycanın neft-qaz sənayesinin perspektiv inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Yataqdan hasil olunacaq neft və qaz Azərbaycanın mükəmməl infrastrukturu, ixrac kəmərləri vasitəsilə daşınacaq. Neft və qaz ixracatçısı olan Azərbaycanın həm də tranzit ölkə kimi önəmi artacaq. Memorandumun imzalanması Azərbaycanla Türkmənistan arasında energetika və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın yeni mərhələyə qaldırılması baxımından çox önəmli addımdır. Sənəd, həmçinin Xəzər dənizinin dibinin bölünməsi üzrə dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir.

Eyni zamanda, bu layihənin çox böyük beynəlxalq və regional əhəmiyyəti vardır. Sözügedən sənədin imzalanması sübut edir ki, Xəzər dənizində bütün məsələlər dialoq və əməkdaşlıq mühitində həll oluna bilər. Memorandum Xəzər dənizi regionunda enerji və nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinə və xarici investorların bu layihələrə cəlb edilməsinə, habelə Azərbaycanın nəqliyyat-tranzit potensialının möhkəmlənməsinə yeni imkanlar yaradır. Layihənin önəmindən bəhs edən Prezident İlham Əliyev vurğulayıb: **“Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq”.**

Çox doğru olaraq 2021-ci ildə Türkmənistanın təşəbbüsü ilə keçiriləcək Xəzəryanı dövlətlərin dövlət başçılarının növbəti Zivə toplantısı ərəfəsində bu memorandumun imzalanması Xəzəryanı dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsinin bariz nümunəsi kimi səciyyələndirilir. Yatağın “Dostluq” adlandırılması iki ölkə arasında münasibətlərin, qardaşlığın, qarşılıqlı əlaqələrin həm də tarixi etnik-dini ənənələrə söykənməsinin təsdiqidir.

**Mübariz ABDULLAYEV**

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda “Korkutname” kitabının təqdimatı keçirilib



Yanvarın 21-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda TÜRKSOY tərəfindən nəşr olunun Türkiyənin milli şairi Kənan Çarboğanın “Korkutname” kitabının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, kitab türk dünyasının ortaq irsi hesab olunan “Kitabi-Dədə Qorqud” dastanı əsasında nəzmə alınıb.

Tədbiri giriş sözü ilə açan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qonaqları salamlayaraq, rəhbərlik etdiyi təşkilatın binasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı əsasında daimi istifadəyə verildiyini bildirib. Fondun prezidenti binanın rəsmi açılışının 2019-cu il oktyabrın 14-də Türkdilli ölkələrin dövlət başçılarının VII Zirvə toplantısı çərçivəsində Fonda üzv və müşahidəçi ölkələrin xarici işlər nazirlərinin və türkdilli beynəlxalq təşkilatların rəhbərlərinin iştirakı ilə həyata keçirildiyini qeyd edib.

Günay Əfəndiyeva tədbir iştirakçılarını Azərbaycanın əzəli torpaqlarının geri qaytarılması ilə əldə olunan tarixi Qələbə münasibətilə təbrik edib və bu qələbənin yalnız Azərbaycana deyil, bütövlükdə türk dünyasına fəxarət hissi bəxş etdiyini vurğulayıb. O, həmçinin keçən ilin sonunda Azərbaycanın işğaldan azad olunan Füzuli və Ağdam rayonlarına səfər etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Natiq bildirib ki, Türk Şurasının Baş katibi Bağdad Amreyev və TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun Azərbaycana səfəri çərçivəsində üç türkdilli beynəlxalq təşkilatın rəhbərləri bir sıra yüksək səviyyəli görüşlər keçirib, mühüm mövzularda müzakirələr aparıblar.

Fondun prezidenti Türk Şurasının, TÜRKSOY-un, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun rəhbərlərinin və nümayəndə heyətlərinin Azərbaycanın işğaldan azad olunan Füzuli və Ağdam rayonlarına səfər etdiyini bildirib. Günay Əfəndiyeva Azərbaycanın tarixi şəhərlərindən və qədim mədəniyyət mərkəzlərindən olan Ağdamın erməni vandalizminin qurbanı olduğunu, Füzulinin isə tamamilə dağıdıldığını qeyd edib.

Fondun prezidenti bildirib ki, “Korkutname” kitabının ilkin təqdimatı Füzuli şəhərində keçirilib. TÜRKSOY-un Baş katibi Düsen Kaseinov kitabı Füzulinin işğaldan azad olunması münasibətilə Fonda hədiyyə edib. **“Beləliklə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu rəhbər səviyyəsində Azərbaycanın bu qədim torpaqlarına ilk qədəm qoyan, TÜRKSOY isə ilk təqdimat mərasimi keçirən təşkilatlardır”,** - deyə Günay Əfəndiyeva vurğulayıb.

Fondun prezidenti bu kitabın Füzulidə təqdimatının simvolik məna daşıdığını, türk dünyasının birliyini təcəssüm etdirən Dədə Qorqudun nəsihətləri ilə iki qardaş təşkilatın həmrəyliklərini bir daha nümayiş etdirdiyini bildirib. **“Kitabın ön sözü Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məxsusdur və bu da Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bir daha göstərir”,** - deyə G.Əfəndiyeva qeyd edib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov tədbirdə çıxış edərək, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevanı və TÜRKSOY-un Baş katibi Düsen Kaseinovu belə önəmli tədbiri təşkil etdiklərinə görə təbrik edib və bunun rəmzi məna daşıdığını vurğulayıb.

Mədəniyyət naziri 2020-ci ilin müstəqil Azərbaycan Respublikasının, eyni zamanda, Azərbaycan xalqının dövlətçilik tarixinə ən unudulmaz və əlamətdar təqvim kimi həkk olunduğunu söyləyib. Azərbaycanın suverenliyinin bərpa olunduğunu, mədəni bütövlüyünün, coğrafi tamlığının təmin olunduğunu qeyd edən Anar Kərimov deyib: **“Təsadüfi deyil ki, türk folkloru tarixinin ifadə forması məhz dastan yaradıcılığıdır. İkinci Qarabağ müharibəsində Azərbaycanın apardığı haqq savaşında başda Türkiyə Cümhuriyyəti olmaqla bütövlükdə türk dünyası mənəvi həmrəylik göstərdi. Bərpa edəcəyimiz Qarabağda bu il Vaqif poeziya günlərini keçirəcəyik və bu ədəbiyyat festivalına əziz şairimiz Kənan Çarboğanı xüsusi dəvət edirik. Kənan Çarboğanın qələmə aldığı və TÜRKSOY-un dəstəyilə nəşr olunmuş “Korkutname” kitabı son 10 ildə işıq üzü görmüş xüsusi əhəmiyyətə malik kitablardan biridir. “Kitabi-Dədə Qorqud” dastanı Azərbaycan və digər türk xalqlarının ədəbi abidəsidir. Bu dastan tariximizin, milli kimliyimizin təzahüründə son dərəcə etibarlı və mötəbər mənbədir”.**

Nazir, Ulu Öndər Heydər Əliyevin bu dastan haqqında söylədiklərini xatırladıb: “Kitabi-Dədə Qorqud” dastanı bütün türk dünyasına məxsusdur. Onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır”. Bildirilib ki, Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı “Azərbaycan Respublikasındakı monumental heykəltaraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında” Sərəncama əsasən Bakı şəhərində 6 hektar ərazidə Dədə Qorqud parkı salınıb, parkın mərkəzində Dədə Qorqud abidəsi ucaldılıb. 2018-ci ildə Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi “Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” adlı çoxmillətli mədəniyyət nümunəsi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Kənan Çarboğan tərəfindən dastanın 12 boyunun kəlmə-kəlmə nəzmə çəkilməsi türk mədəniyyətinə təqdirəlayiq bir töhfədir. Kənan Çarboğanın ömrünün 10 ilini bu işə həsr etməsi onun bədii yaddaşımıza ehtiramıdır, sevgisidir, hətta bir yazıçı kimi öz soykökünə bağlılığıdır.

Anar Kərimov çıxışının sonunda kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov çıxış edərək, tədbir iştirakçılarını Şanlı Qələbə münasibətilə təbrik edib, hər kəsi “Korkutnamə” kitabının təqdimatında görməsindən şad olduğunu bildirib. Baş katib mərasimin Bakıda- Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda keçirilməsindən böyük məmnunluq duyduğunu qeyd edib. Kitab haqqında məlumat verən Düsen Kaseinov Türk Dünyasının ortaq dastanı olan Dədə Qorqudun ədəbiyyat xəzinəsinin zəngin sərvətlərindən olduğunu vurğulayıb.

Tədbirdə Milli Məclisin mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı Kamal Abdulla, Milli Məclisin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov və Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək belə tədbirlərin keçirilməsinin önəmindən danışıb, tarixi yazılı abidə olan “Kitabi-Dədə Qorqud”la bağlı fikirlərini bölüşüb və bu istiqamətdə daha geniş tədqiqatların aparılmasının, gənclərin bu sahənin dərindən öyrənilməsinə cəlb olunmasının vacibliyindən söz açıblar.

Tədbirin sonunda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkili çəkdirilib.

# Milli Məclisdə “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanması məqsədilə onlayn videokonfrans keçirilib




Yanvarın 22-də “Ali təhsil haqqında” Azərbaycan Respublikasının qanun layihəsinin hazırlanması məqsədilə yaradılmış işçi qrupunun videokonfrans formatında görüşü keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, parlamentin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə keçirilən konfransda Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Milli Məclisin elm və təhsil komitəsinin üzvləri, müvafiq dövlət qurumlarının nümayəndələri, ali təhsil ocaqlarının rəhbərləri və ekspertlər iştirak ediblər.

Videokonfransı giriş sözü ilə açan sədr Sahibə Qafarova, konfrans iştirakçılarını salamlayıb, 2020-ci ildə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətin nəticələri və gələcək planlar barədə danışıb. Sədr xatırladıb ki, yanvarın 6-da dövlətimizin başçısının sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilmiş müşavirədə Prezident ötən ilin yekunlarını geniş və konseptual şəkildə təhlil edərək qarşıda duran vəzifələri müəyyənləşdirib.

Milli Məclisin sədri deyib ki, ötən ilin ən ümdə hadisəsi Vətən müharibəsində əldə olunmuş tarixi zəfər nəticəsində torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün bərpasıdır. Bu münasibətlə konfrans iştirakçılarına təbriklərini çatdıran Sahibə Qafarova qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli sərkərdəlik məharəti, yüksək liderlik qabiliyyəti və şanlı Ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın əldə etdiyi bu Qələbə tariximizdə əbədi olaraq qalacaq.

Sədrin sözlərinə görə, geridə qalan 2020-ci ildə koronavirus pandemiyasının bütün dünya dövlətləri üçün yaratdığı problemlər fonunda Azərbaycan bir çox ölkələrlə müqayisədə bu sınaqdan daha az itkilərlə çıxıb. Bildirilib ki, ötən il ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın bir çox sahələrində inkişaf meyilləri qeydə alınıb, siyasi islahatların, o cümlədən struktur və kadr islahatlarının həyata keçirilməsi ölkənin demokratik inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı olub.

2020-ci ildə keçirilən növbədənkənar parlament seçkiləri nəticəsində Milli Məclisin yeni tərkibinin formalaşdığını xatırladan Sahibə Qafarova diqqətə çatdırıb ki, parlament ölkənin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və praqmatik daxili və xarici siyasətini Milli Məclis səviyyəsində dəstəkləyərək bu istiqamətdə zəruri işlər görüb. Vətən müharibəsində parlament diplomatiyasının bütün imkanları ölkəmizin haqq işi barədə dünya ictimaiyyətini məlumatlandırmağa, Ermənistanın törətdiyi təxribatların beynəlxalq auditoriyaya çatdırılmasına səfərbər olunub. Qanunverici orqanın fəaliyyətinin səmərəliliyinin daha da artırılması, müasir tələblər çərçivəsində həyata keçirilməsi üçün məqsədyönlü addımlar atılıb.

Videokonfransda parlamentin sədri deyib ki, qlobal pandemiyanın yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, təhsil sahəsində də məqsədyönlü işlər görülüb, istər tədrisin təşkili, istərsə də qəbul imtahanlarının keçirilməsində qarşıya qoyulan məqsədlərə nail olunub. Bu, həm dövlətimiz tərəfindən bu sahəyə yüksək diqqət və qayğının göstərilməsi, həm də təhsil sistemində işlərin peşəkarlıqla təşkil edilməsinin nəticəsidir.

Təhsil sahəsinin hər bir dövlətin, cəmiyyətin inkişafında mühüm rola malik olduğunu qeyd edən Sahibə Qafarova bildirib ki, haqlı olaraq, təhsil, bilik inkişafın, tərəqqinin özəyi kimi dəyərləndirilir. Birmənalı şəkildə qeyd edə bilərik ki, Azərbaycanda təhsilin inkişafına yüksək səviyyədə diqqət və qayğı göstərilir. Ölkəmizdə təhsil sahəsində həyata keçirilən məqsədyönlü siyasət və ardıcıl tədbirlər nəticəsində böyük nailiyyətlər əldə olunub. Prezident İlham Əliyev təhsil sahəsinin inkişafını, ölkəmizdə müasir dünyagörüşlü və vətənpərvər gənc nəslin yetişməsini dövlət siyasətinin mühüm prioritetlərindən biri elan edib, bu istiqamətdə ardıcıl addımlar atılıb. Eyni zamanda, təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülüb, son 15 ildə minlərlə orta məktəb tikilib və ya əsaslı təmir olunub. Bu da təhsildə infrastruktur məsələlərinin yüksək səviyyədə həllini təmin edib.

Sədr bildirib ki, ölkəmizdə təhsildə inteqrasiyanı sürətləndirmək, peşəkar, savadlı kadrların hazırlanması məqsədilə də müxtəlif proqramlar icra olunub. Görülən işlərin nəticəsində Azərbaycanda müasir dövrün tələblərinə uyğun güclü təhsil sistemi formalaşıb. Sahibə Qafarova xüsusi vurğulayıb ki, bütün bu işlərin həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mühüm işlər görüb, bir çox təşəbbüslər irəli sürüb və reallaşdırıb.

Ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatların qanunvericilik əsaslarının yaradılması və hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində də uğurlu addımlar atılıb. Bu istiqamətdə Milli Məclis tərəfindən bir sıra qanunlar hazırlanıb və qəbul olunub.

Sədr qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanmış və 2013-cü ildə təsdiq etdiyi “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təhsil sahəsində islahatların yeni mərhələsi olub. Bu strategiyaya uyğun olaraq müasir beynəlxalq təhsil standartlarına əsaslanaraq, Azərbaycanda təhsilin keyfiyyətini yüksəltmək məqsədilə davamlı islahatlar həyata keçirilməkdədir. O cümlədən ali təhsil sahəsində də sistem xarakterli tədbirlər görülüb, islahatlar aparılıb, ali təhsilin keyfiyyəti xeyli yaxşılaşdırılıb. Bununla belə, zaman sürətlə dəyişir, müasir çağırışlar meydana gəlir. Azərbaycanın sürətli və davamlı inkişafı bütün sahələrdə yeni reallıqlar yaradıb. Təbii ki, bu yeni və müasir reallıqlar, həmçinin mövcud dünya təcrübəsinin təhlili ölkəmizdə ali təhsil sahəsində köklü islahatların həyata keçirilməsini və qanunvericilik bazasının möhkəmləndirilməsini zəruri edir.

Bu baxımdan, Prezident İlham Əliyevin təsdiq etdiyi “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” ali təhsilin keyfiyyətcə yeni səviyyəyə keçidini təmin etməyə yönəlmişdir. Belə ki, bu proqramda həm ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları və xarici mütəxəssislərin cəlb olunması yolu ilə təkmilləşdirilməsi, həm də xaricdə doktorantura təhsili vasitəsilə elmi kadrların hazırlanması nəzərdə tutulur. Ali təhsil müəssisələrinin müasir elmi - tədqiqat və innovasiya mərkəzlərinə çevrilməsi prosesi sürətlənməli və onların dünya reytinqində irəliləməsi təmin olunmalıdır. Nəticə etibarilə tədqiqat universitetlərinin yaradılması, əmək bazarının tələbləri əsasında yenilikçi, peşəkar kadrların hazırlanması təmin edilməlidir.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, mövcud qanunvericiliyin təhlili göstərir ki, ali təhsilin Avropa ali təhsil məkanına inteqrasiyanı sürətləndirmək məqsədilə kifayət qədər zəruri dövlət proqramlarının icrasına, “Təhsil haqqında” qanuna dəyişiklik və əlavələrin edilməsinə baxmayaraq, ali təhsilin qanunvericilik bazası yetərincə təmin edilməyib. Ali təhsil haqqında məsələlər “Təhsil haqqında” Qanunda əsasən bir maddədə və çox qısa formada əksini tapıb. Bu sahədə məsələlər digər normativ və hüquqi sənədlər əsasında tənzimlənir. Halbuki, bu məsələlər qanunla tənzimlənməlidir. Bu, həm də Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyaların tələbidir. Ona görə də ilk dəfədir ki, Azərbaycanda “Ali təhsil haqqında” qanun hazırlanır. Sədr qeyd edib ki, əvvəllər belə bir qanun olmayıb.

Sahibə Qafarova bildirib ki, 2021-ci il bizim üçün sadəcə yeni bir təqvim ili deyil. Biz Azərbaycan dövləti və xalqımız üçün yeni bir mərhələyə qədəm qoymuşuq. Bu da onunla bağlıdır ki, Vətən müharibəsində əldə etdiyimiz Zəfər, torpaqlarımızın işğaldan azad olunması ölkəmizin qarşısında yeni perspektivlər yaradıb, yeni vəzifələr müəyyənləşdirib. Bu, quruculuq dövrüdür və bu mərhələdə görüləcək tədbirlər, qarşıda duran vəzifələr sözügedən müşavirədə Prezident İlham Əliyev tərəfindən aydın şəkildə ifadə edildi. Mən inanıram ki, bu vəzifələrin yerinə yetirilməsi Azərbaycanın uğurla, inamla inkişafına kömək edəcək. O, əminliyini ifadə edib ki, ölkəmizin təhsil ictimaiyyəti də yeni quruculuq dövründə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək və Azərbaycanın davamlı inkişafına töhfələr verəcək.

Sədr çıxışının sonunda bugünkü konfransda həm təhsil sahəsində əldə olunan nailiyyətlər və digər məsələlər, həm də “Ali təhsil haqqında” qanunun hazırlanması və qəbul olunması ətrafında müzakirələr aparılacağına, dəyərli təkliflər səslənəcəyinə inamını ifadə edib.

Sonra çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri, işçi qrupun rəhbəri Bəxtiyar Əliyev diqqətə çatdırıb ki, bu, işçi qrupunun ilk iclasıdır. Bugünkü iclasın məqsədi təhsil sahəsi üzrə mütəxəssislərin fikirlərini dinləmək, mövcud vəziyyəti təhlil etmək və onların əsasında “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanmasıdır. Bununla bağlı biz beynəlxalq konvensiyaları, ölkəmizin qoşulduğu bir sıra beynəlxalq sənədləri, qanunvericiliyimizi və əmək bazarını təhlil etmişik. Bu gün səslənən fikirlər əsasında qanun layihəsinin ilkin variantı hazırlanacaq. İşçi qrupunun növbəti iclasında qanun layihəsinin ilkin variantı müzakirə ediləcək. Qanun layihəsi hazırlanıb komitəyə təqdim edildikdən sonra onun geniş müzakirələri keçiriləcək. Komitədə müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunacaq.

Videokonfransda çıxış edən təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan təhsilinin qarşısında dayanan mühüm məsələ olan “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanması məqsədilə bu cür geniş müzakirənin keçirilməsi təqdirəlayiqdir. Hazırda ölkəmizdə 51 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onların 20-si Təhsil Nazirliyinin tabeliyində, 13-ü digər nazirlik və komitələrin nəzdində fəaliyyət göstərir, 11-i özəl, 7-si isə xüsusi təyinatlıdır.

Nazir hazırlanacaq qanun layihəsinin əsas məsələləri barədə məlumat verib. Təhsil naziri təhsil sisteminin iştirakçıları, ali təhsilin əlçatanlığı, təhsilin keyfiyyəti, səmərəliliyi, idarəetmə prosesi, ali təhsilin mövcud maliyyələşmə mexanizmləri, təhsilin beynəlxalq standart üzrə təsnifatı, təqaüdlər, tələbə kreditləri, tədris və təlim prosesi, təhsilin iqtisadiyyatı, təhsilin keyfiyyətinə nəzarət və təhsilin formaları barədə fikirlərini bölüşüb, qanun layihəsində nəzərə alınmalı olan məsələləri diqqətə çatdırıb.

Sonra çıxış edən Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali təhsil müəssisələrinə qəbul, tələbə qəbulu prosesinin ümumi qaydaları haqqında təkliflərini səsləndirib. DİM sədri beynəlxalq imtahanlar haqqında, ali təhsilin beynəlmiləlləşməsi haqqında, ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin qiymətləndirilməsi, qəbul imtahanlarında keçid ballarının aşağı salınması, qəbul planının artırılması və digər məsələlər barədə fikirlərini bildirib. Məleykə Abbaszadə hazırlanacaq qanun layihəsində bir sıra anlayışların açıqlanmasının vacibliyindən danışıb, tələbə qəbulu sahəsində statistik məlumatları diqqətə çatdırıb.

Onlayn videokonfransda çıxış edən Milli Məclisin elm və təhsil komitəsinin üzvləri - İsa Həbibbəyli, Musa Qasımlı, Ceyhun Məmmədov, Etibar Əliyev, Anar İsgəndərov, Kamilə Əliyeva, Şahin Seyidzadə, Aqiyə Naxçıvanlı, Pərvin Kərimzadə və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov hazırlanacaq qanun layihəsi barədə qeyd və təkliflərini səsləndiriblər. Çıxış edənlər distant təhsil, elmi kadrların hazırlanması, təhsildə milli-mənəvi dəyərlər, bu sahədə qarşıda dayanan vəzifələr barədə fikirlərini bildiriblər.

Videokonfransa yekun vuran elm və təhsil komitəsinin sədri və işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev qeyd edib ki, iclasda cəmiyyəti narahat edən məsələlər ətrafında çox maraqlı və səmərəli müzakirələr aparılıb. Bu gün səslənən təkliflər əsasında “Ali təhsil haqqında” qanun layihəsinin ilkin variantı hazırlanacaq və işçi qrupunun növbəti iclasında geniş müzakirə olunacaqdır.

Bununla da “Ali təhsil haqqında” Azərbaycan Respublikası qanunu layihəsinin hazırlanması məqsədilə yaradılmış işçi qrupunun onlayn videokonfransı başa çatıb.

# Eldar İbrahimov: “Dostluq” yatağına dair razılaşma Azərbaycanla Türkmənistan arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini göstərir



**“Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına malik olan məkan kimi hər zaman dünyanın diqqət mərkəzində olub. Bununla belə, respublikamızda neft sənayesinin inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Həm sovet dönəmində, həm də müstəqillik illərində Ulu Öndərimiz Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bu sahənin inkişafına xüsusi diqqət göstərib. Bu gün xalqımız və dövlətimiz Ulu Öndərimizin əsasını qoyduğu neft strategiyasının, “Əsrin müqaviləsi”nin bəhrələrini görməkdədir. Prezidentimiz cənab İlham Əliyev neft strategiyasını uğurla davam etdirərək ölkəmizin dinamik inkişafını təmin edib”.** Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin İntizam komissiyasının sədri, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, partiyanın Sosial, iqtisadi və regional məsələlər üzrə komissiyasının sədri Eldar İbrahimov deyib.

Eldar İbrahimov bildirib ki, son 17 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu neft strategiyasının davamı olaraq bir sıra neft və qaz müqavilələri imzalanıb. İmzalanan bu müqavilələr ölkəmizin iqtisadi qüdrətinin artmasına, eləcə də əhalinin rifah halının yüksəlməsinə xidmət edir. Onun sözlərinə görə, yanvarın 21-də Aşqabad şəhərində “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi

*“Bu fakt türkdilli ölkələr arasında münasibətlərin güclənməsini də özündə ifadə edir”*

və mənimsənilməsi haqqında Anlaşma Memorandumu” imzalanması da bu baxımdan böyük əhəmiyyətə malikdir. YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Azərbaycan hər zaman Xəzər dənizində dialoq, qarşılıqlı anlaşma, əməkdaşlıq və sabitlik mühitinin formalaşdırılması üzrə səylər göstərib və Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün ilk təşəbbüs göstərən ölkələrdən biri kimi çıxış edib. Bu səylər Xəzər dənizində bölgü məsələləri üzrə bütün sahilyanı ölkələrin mövqelərinin yaxınlaşdırılmasına və ümumi razılığın əldə edilməsinə xidmət edib. Uzun illər aparılan danışıqlar, Xəzəryanı dövlətlər arasında qarşılıqlı kompromis və mövqelərin yaxınlaşması nəticəsində 2018-ci ildə “Xəzər dənizinin hüquqi statusu haqqında” Konvensiya imzalanıb.

Millət vəkili söyləyib ki, Azərbaycanla Türkmənistan arasında imzalanmış bu sənəd də Xəzərin bir dostluq və əməkdaşlıq dənizi olduğunu bir daha təsdiqləyir: **“Yatağın “Dostluq” adlandırılması iki ölkə arasında dostluğun, qardaşlığın, qarşılıqlı əlaqələrin həm də tarixi etnik-dini ənənələrə söykənməsinin bariz nümunəsidir. Memorandumun imzalanması tarixi hadisədir və düşünürəm ki, bu hadisə Azərbaycanın neft-qaz strategiyasının inkişafında mühüm rol oynayacaq. Bu layihənin reallaşması neft və qaz ixracatçısı olan Azərbaycanın həm də tranzit ölkə kimi əhəmiyyətini artıracaq. Sənədin imzalanması Azərbaycanla Türkmənistan arasında energetika və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın yeni mərhələyə qaldırılmasında çox önəmli addımdır. Bütövlükdə, bu hadisə Azərbaycanla Türkmənistan arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini göstərir. Eyni zamanda, bu fakt türk birliyinin, türkdilli ölkələr arasında münasibətlərin güclənməsini də özündə ifadə edir. Düşünürəm ki, düşünülmüş və uzaqgörən siyasət nəticəsində türk dövlətləri və xalqları arasında əlaqələr daha da möhkəmlənəcək və regional güc amilinə çevriləcək”.**

**Nardar BAYRAMLI**

# İşğaldan azad edilmiş ərazilərimizin bərpası iqtisadiyyatımızın inkişafına yeni bir təkan verəcək



*Milli Məclisin deputatı Rauf Əliyev www.yap.org.az saytına müsahibə verib:*

**- Rauf müəllim, hazırda ölkə gündəmində olan əsas məsələlərdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpasıdır. Bu istiqamətdə görülən işlər haqqında fikirlərinizi bilmək istərdik...**

- Bilirsiniz ki, Azərbayan dövləti və xalqı Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində qarşısında duran əsas problemin həllinə nail oldu. Artıq Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub və ölkəmizin ərazi bütövlüyü təmin edilib. Qarşıda isə bizi yeni mühüm vəzifə gözləyir ki, bu da işğaldan azad olunan ərazilərin bərpa edilməsi ilə bağlıdır. Qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı bu məsələ ilə bağlı qarşıya qoyulan hədəfləri cəmiyyətimizə çatdırıb. Azərbaycan güclü dövlət kimi işğaldan azad edilən torpaqlarımıza həyatı qaytarmaq, bu əraziləri dirçəltmək əzmindədir. Dövlətimizin başçısı vurğulayıb ki, bizim əsas diqqətimiz azad edilmiş torpaqlara olmalıdır və bu sahədə ilkin infrastruktur layihələrinin icrası artıq başlayıb.

Ümumiyyətlə, Azərbaycanın işğaldan azad edilən ərazilərdə bərpa planları kifayət qədər genişdir. Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində geri qaytarılan ərazilərin tezliklə bərpa edilməsi üzrə işlərin həyata keçirilməsi, müvafiq infrastrukturların yaradılması, həmin regionun Azərbaycan iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi üçün bu ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait nəzərdə tutulub. Müşavirədə də bildirildiyi kimi, ordunun təchizatı, respublikamızın sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsi də nəzərə alınmaqla, ümumilikdə bu tədbirlərə 4,6 milyard manat maliyyə təminatı ayrılıb. İşğaldan azad edilən ərazilərin bərpası işləri isə müəyyən ardıcıllıqla həyata keçiriləcək.

**- Sizcə, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı hansı səviyyədədir?**

- Əlbəttə ki, bu ərazilərin potensialı çox yüksəkdir. Baxmayaraq ki, işğalçılar 30 il ərzində bu ərazilərdə hər şeyi məhv edib, amma bu torpaqların hər qarışı bizim sərvətimizdir. Gözəl təbiəti, yeraltı və yerüstü resursları olan Qarabağ torpaqlarının iqtisadiyyatımıza böyük dividendlər gətirəcəyi şübhəsizdir. Təbii ki, quruculuq işləri həyata keçiriləndən, insanlar o torpaqlara qayıtdıqdan, torpaqların əkilib-becərilməsindən, sosial-iqtisadi infrastrukturun yaradılmasından sonra biz həmin bölgələrin inkişafımıza nə qədər böyük təkan verəcəyinin, müsbət təsir göstərəcəyinin şahidi olacağıq.

Azad olunmuş bütün şəhərlərin, kəndlərin bərpasının müasir tələblər nəzərə alınmaqla həyata keçirilməsi nəzərdə tutulur. İşlər elə aparılmalıdır ki, bərpa olunacaq şəhərlərin və kəndlərin dəqiq say tərkibi müəyyən edilsin. Ərazilərdə infrastruktur, məşğulluq və s. bu kimi məsələlər nəzərə alınmalıdır. Məlumdur ki, indiyədək işğaldan azad edilmiş torpaqların bərpası və inkişafı konsepsiyası hazırlanıb. Geri qaytarılan ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacaq.

İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün bir neçə mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələ idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlər isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir. Hər bir bölgəmizin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqlarına, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq onların profili, ixtisaslaşması nəzərdə tutulub. Bütövlükdə, bu ərazilərimizin yaxın illərdə yüksək səviyyədə bərpa olunacağına inanırıq.

**- Azərbaycan iqtisadiyyatında müşahidə edilən müsbət meyillər beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Bu barədə nə deyə bilərsiniz?**

- Son illərdə Azərbaycan iqtisadiyyatında müşahidə edilən müsbət meyillər beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Bunu nüfuzlu beynəlxalq qurumların, reytinq agentliklərinin yaydıqları hesabatlardan da aydın şəkildə görmək mümkündür. Həmin hesabatlarda Azərbaycanın mövqeyi ilbəil ardıcıl şəkildə yaxşılaşır.

Belə ki, Dünya Bankının son hesabatı, həmçinin nüfuzlu Davos İqtisadi Forumunun dəyərləndirmələri təsdiqləyir ki, milli iqtisadiyyatımız 2020-ci ildə də dayanıqlılığını qoruyub saxlayıb. Məlum olduğu kimi, ötən il qlobal pandemiya səbəbindən dünya ölkələri üçün çətin keçib. Dünya miqyasında iş və xidmətlərə tələbat azalıb, insanların əmək bazarına inteqrasiyası məhdudlaşıb. Pandemiya şəraitində ayrı-ayrı ölkələr sosial-iqtisadi inkişafla bağlı proqramlarını ixtisara salmaq məcburiyyətində qalıblar. Azərbaycan isə pandemiya şəraitində iqtisadi subyektlərə dəstək tədbirləri reallaşdırıb, həmçinin təxminən 5 milyon insanı əhatə edən geniş sosial proqram həyata keçirib. Azərbaycan dünya üzrə pandemiya səbəbindən artan xərcləri ni sırf daxili imkanlar hesabına qarşılayan azsaylı ölkələrdən biridir.

Ölkəmiz, həmçinin beynəlxalq həmrəyliyə töhfə vermək ənənəsinə sadiq qalaraq Ümumdünya Səhiyyə Təşkilatına iki tranşda 10 milyon dollar ianə ayırıb və 30-dan çox ölkəyə dəstək göstərib. Bütün bunlar Azərbaycan iqtisadiyyatının dayanıqlılığını təsdiqləyir ki, bu da beynəlxalq reytinq agentliklərinin hesabatlarında öz əksini tapır. Dünya Bankının yenidən hesablanmış “Doing Business” hesabatında Azərbaycanın 190 ölkə arasında 28-ci yerə yüksəlməsi, 10 ən islahatçı ölkə sırasına daxil edilməsi böyük nailiyyətdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında isə respublikamızda aparılan müasir infrastruktur quruculuğuna yüksək qiymət verilib. Belə ki, respublikamız dəmir yolu xidmətlərinin səmərəliliyi indeksinə görə 11-ci yerə, hava yolları xidmətlərinin səmərəliliyi üzrə 12-ci yerə, avtomobil yollarının keyfiyyət göstəricisinə görə 24-27-ci yerlərə layiq görülüb. Bu hesablama inkişaf etməkdə olan 74 ölkə arasında aparılıb. İnklüziv inkişaf indeksi üzrə isə Azərbaycan üçüncü yerdə qərarlaşıb.

Bu sosial-iqtisadi inkişaf göstəriciləri ölkəmizdə aparılan məqsədyönlü, düzgün siyasətin nəticəsidir. Son 17 ildə Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında müxtəlif istiqamətlərdə islahatlar aparılıb. Ölkədə aparılan islahatlar sosial-iqtisadi inkişaf üçün möhkəm hüquqi əsaslar yaradıb. Bu gün Azərbaycan dünyada yüksək investisiya cəlbediciliyinə malik ölkə kimi tanınır. Hazırda Azərbaycan iqtisadiyyatının maliyyə təminatı yüksək səviyyədədir. Milli iqtisadiyyatımızın müxtəlif istiqamətlərinə həm daxili, həm də xarici mənbələrdən böyük həcmlərdə investisiyalar yönəldilir. Bütün bunlar iqtisadi gücümüzü, dünyadakı reytinqimizi artıran amillərdir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


## Qırğızıstan portalları Azərbaycanla Türkmənistan arasında əlaqələrin genişlənməsindən yazır




Qırğızıstanın "goldenbridge-news.com" və "centralasia.media" portalları Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə əlaqədar prezidentlər İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında keçirilən görüş barədə materiallar yayıblar.

AZƏRTAC xəbər verir ki, "goldenbridge-news.com" saytı Azərbaycan və Türkmənistan prezidentlərinin imzalanma mərasimindəki çıxışlarının tam mətnini dərc edib.

Materiallarda, həmçinin qeyd edilib ki, Xəzər dənizindəki "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu bu iki ölkənin xarici işlər nazirləri imzalayıblar.

Portallar Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovu qəbul etməsi barədə də informasiya yayıblar.

## Türkiyə KİV-lərində Azərbaycan ilə Türkmənistan arasında imzalanan Anlaşma Memorandumu barədə geniş məlumatlar yayımlanıb

Türkiyə kütləvi informasiya vasitələri Azərbaycan ilə Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması barədə geniş məlumatlar yayıb.

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mediası, həmçinin Türkiyə Xarici İşlər Nazirliyinin məlum anlaşmanı məmnuniyyətlə qarşılamasına dair açıqlamaya da geniş yer ayırıb.




Məlumatlarda əminliklə ifadə olunur ki, yanvarın 21-də Azərbaycan ilə Türkmənistan arasında imzalanmış məlum tarixi sənəd regiondakı iqtisadi münasibətlərə və inkişaf prosesinə yeni təkan verəcək.

## İraqın "Əl Zaman" qəzetində 20 Yanvar faciəsindən bəhs edən məqalə dərc olunub




İraqın "Əl Zaman" qəzetində "Vətənpərvər" - Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyinin sədri, tədqiqatçı alim Seymur Nəsirovun "Azərbaycanda Yanvar hadisələri və Misirdə 1919 inqilabının oxşar cəhətləri" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə 20 Yanvar faciəsinin tarixi haqqında ətraflı məlumat verilir. Qeyd olunur ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli qırğın törədilib. Bu qanlı hadisənin törədilməsindən əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik arzusunda olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi.

Dünya ölkələrinin ikili standartlar mövqeyindən çıxış etməsindən yazan misirli alim qeyd edib: "Misirin hər guşəsində kəndlər yandırılır, insanlara qarşı soyqırımı törədilir və buna rəğmən, heç bir ölkə törədilən bu faciəni qınamır. Amma düşmənçilik edərək qətliam törədən ermənilərdən qisas almağa başlayanda, dərhal bizi qınayırlar". Məqalədə Azərbaycana qarşı da ikili standartlardan çıxış edildiyi, ermənilərə dəstək verildiyi vurğulanır. Qeyd olunur ki, otuz il ərzində Qarabağda mədəni abidələrimizi dağıdan və məscidlərimizi təhqir edərək xarabalığa çevirən ermənilərə qarşı heç kim etiraz etmir.

Müəllif vurğulayır ki, 31 il əvvəl Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Görünməmiş qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan yüzlərlə insan xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə qətlə yetirilib. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar da olub. Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi.

## Koronavirus xəstələrinin vəziyyətinin ağırlaşmasına səbəb olan əsas səhvlər hansılardır?

Yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma zamanı xəstəliyi yüngül keçirənlər ev şəraitində müalicə alırlar. Təəssüf ki, həmin xəstələrin müəyyən hissəsi evdə müalicə olunarkən şəfa tapmaq üçün kimdənsə eşitdiyi, yaxud da sosial şəbəkələrdə paylaşılan hansısa resept və üsullardan, türkəçarələrdən istifadə edir. Təcrübə göstərir ki, ağırlaşmaların başlıca səbəbi çox vaxt bununla əlaqədar olur.

*"Fəsad riskini azaltmaq üçün düzgün qidalanmaya riayət etmək və spirtli içki qəbul etməmək vacib şərtdir"*



Məsələ ilə bağlı qəzetimizə açıqlama verən həkim-terapevt Sevil Hacıyeva koronavirus xəstələrinin vəziyyətinin ağırlaşmasına səbəb olan əsas səhvlər haqda danışıb. Mütəxəssis hesab edir ki, əsasən, evdə müalicə zamanı yol verilən yanlışlar xəstələrin vəziyyətini ağırlaşdırır.

*"Zəifləmiş orqanizmi soyuqdan qorumaq çox vacibdir"*

Onun sözlərinə görə, düzgün qidalanmaya riayət etmək və spirtli içki qəbul etməmək vacib şərtdir: **"Fəsad riskini azaltmaq üçün bir neçə şərtə və ən başlıcası isə evdə müalicə üçün həkim tövsiyələrinə riayət edilməlidir. Dərmanlar bir aylıq təyin olunubsa, bir ay içilməlidir. Qan analizini izləmək və sağalandan iki həftə sonra yenidən test aparmaq da vacibdir.**

**Bundan əlavə, zəifləmiş orqanizmi soyuqdan, üşüməkdən qorumaq çox vacibdir. Ən azı bir ay ərzində yağlı, ədviyyatlı, şirin və duzlu qidalardan və alkoqoldan imtina etməlidir".**

*"Yağlı, ədviyyatlı, şirin və duzlu qidalardan imtina etmək lazımdır"*

Terapevt B və D vitaminlərinin səviyyəsini idarə etməyi və qan təzyiqini izləməyi də məsləhət görüb.

**MÜŞFİQƏ**




## Əli Kərimli yeni yalanlarının kölgəsinə sığınmağa çalışır

44 günlük Vətən müharibəsinin bitməsindən dərhal sonra sosial şəbəkələrdə qələbəmizə qarşı çirkin kampaniyalar aparan radikal müxalifət düşərgəsinin təmsilçiləri qazanılmış böyük zəfərə kölgə salmağa, ona qara yaxmağa niyyətlənmişdilər. Amma deyəsən, onlar bunun faydasız olduğunu, xalqın bu yalanlara aldanmayacağını dərk ediblər. Məhz buna görə də radikal müxalifət "val"ı dəyişib, yenidən ənənəvi yoluna qayıdıb.

*Əli Kərimli müharibə mövzusundakı qərəzli yalanlarını "ayaq tutdurub yeridə bilmədiyini" görərək mövzunu dəyişib*

Belə ki, dünənə qədər sosial şəbəkələrdə, ən əsası isə ermənipərəst Osmanqızı TV-də Azərbaycanın Vətən müharibəsindəki qələbəsini "yarımçıq" adlandıran, ölkəmizin 30 ilə yaxın müddətdən sonra bərpa olunmuş ərazi bütövlüyünü şübhə altına almaq istəyən Əli Kərimli müharibə mövzusundakı qərəzli yalanlarını "ayaq tutdurub yeridə bilmədiyini" görərək "mövzu"nu dəyişib. Yəni, Əli Kərimlinin yenidən "sosial mövzu"lara köklənməsi onun müharibə yalanlarının daşa dəydiyini təsdiqləyir. Yeri gəlmişkən, Ə.Kərimlinin "yeni iddiaları" da yalan potensialı baxımından öncəkilərdən geri qalmır. Məsələn, özünü xalqa canıyanan göstərməyə çalışan AXCP sədri Vətən müharibəsi dövründəki fürsətcil mövqeyini arxa plana keçirib, bu dəfə də şəhidlərimizin, qazilərimizin kölgəsində uğursuz manipulyasiya həyata keçirməyə çalışır. Amma unudur ki, onun danışdığı yalanlar bumeranq effekti ilə öz sifətinə çırpılır. Məsələn, Əli Kərimlinin əsassız iddialarının əksinə olaraq, şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının sosial problemlərinin həlli ilə bağlı genişmiqyaslı tədbirlərin həyata keçirilməsi, onlara verilən aylıq müavinətlərin dövlət başçısının müvafiq qərarı ilə artırılması, hətta müharibə iştirakçıları ilə bağlı ortaya çıxa biləcək hər hansı bir formal problemin operativ şəkildə öz həllini tapması üçün müvafiq komissiyanın yaradılması hər kəsə gün kimi aydındır. Bu gün ölkəmizdə şəhid ailələrinin qarşılaşa biləcəyi hər hansı bir kiçik problemin belə həll edilməsi həm cəmiyyət, həm də dövlət olaraq əsas prioritetlərdən sayılır. Eyni zamanda, bu il ərzində minlərlə şəhid ailəsinə yeni mənzillərin verilməsi nəzərdə tutulur. Eləcə də şəhid olmuş qəhrəmanlarımızın övladlarına müvafiq müavinətlərin verilməsi, onlara xüsusi imtiyazların tanınması artıq təmin olunub.

*Əli Kərimlinin yenidən "sosial mövzu"lara köklənməsi, yeni cılız qara piar kampaniyasına start verməsi onun müharibə yalanlarının daşa dəydiyini təsdiqləyir*

Bəs, görəsən, hər kəsin gördüyü və bildiyi bu reallığı Ə.Kərimli bilmirmi, yaxud da görmürmü? Təbii ki, həm bilir, həm də görür. Sadəcə olaraq, xain xislət atılan müsbət addımları etiraf etməyə mane olur.

Göründüyü kimi, Əli Kərimlinin bu dəfəki "iddiaları" da qərəzli və əsassızdır. Sadəcə olaraq, AXCP sədri növbəti dəfə özünü "siyasi meydanda" saxlamaq, daha doğrusu onu pulla təmin edən xaricdəki ermənipərəst dairələr qarşısında özünü "təsdiq etmək" üçün yenə də ortaya atdığı boş fikirlərlə gündəmə gəlməyə çalışır. Bu isə nə onun özünə, nə də ətrafındakılara heç bir siyasi dividend qazandırmayacaq. Çünki Azərbaycan xalqı onların əsl simasını yaxından tanıyır.

**Pərviz SADAYOĞLU**

## Ermənistanda siyasi böhranın növbəti mərhələsi...

*Siyasi qüvvələr arasındakı qarşıdurma və hökümət daxilindəki yeni istefa dalğası məğlub ölkədə tənəzzülün dərinləşməsini şərtləndirir*

Məlum olduğu kimi, məğlub Ermənistanda artıq neçə aydır davam edən xaos və siyasi böhran özünün növbəti mərhələsinə qədəm qoyub. Parlamentdən kənarda olan və hökumətin istefasını tələb edən siyasi qüvvələrin istəklərinə etinasız yanaşan baş nazir Nikol Paşinyan yaranmış vəziyyətdə guya növbədənkənar parlament seçkilərinə razı olduğunu nümayiş etdirir. Erməni mediası isə yazır ki, bu məsələni ortaya atmaqla Paşinyan etirazların səngiməsi üçün vaxt qazanmağa çalışır. Buna baxmayaraq, etiraz aksiyaları və hakim komandadan yeni istefa dalğası hökumətin gələcəyi üçün yaxşı heç nə vəd etmir.

Belə ki, son günlər hökumət daxilində yeni istefa dalğasının başlanması müşahidə edilir. "News.am" yazır ki, Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Narine Xaçatryan istefa verib. Hökumətin mətbuat xidmətindən bu məlumatı təsdiq etsələr də, istefanın səbəbi dəqiq açıqlanmır. Bu arada, Şirak vilayətinin qubernatoru Tiqran Petrosyanın vəzifəsindən istefa verməsi də yeni istefa dalğasının ilk təzahürləri kimi qiymətləndirilir.

"Joxovurd" qəzeti isə yazır ki, Ermənistan hakimiyyəti növbədənkənar seçki təklifini gündəmdən çıxarmayıb. Qəzetin yazdığına görə, Paşinyan müxtəlif siyasi xadimlərlə görüşüb, eyni seçki blokunda seçkilərə getməyi təklif edib. Nəşrin yaydığı digər məlumata görə, baş nazir Arman Babacanyanın "Respublika uğrunda" partiyasını və Edmon Marukyanın partiyasını bu bloka daxil etmək niyyətindədir. "Maariflənən Ermənistan" partiyasının və parlamentdəki fraksiyasının rəhbəri E.Marukyan isə bu müzakirələri öz arzusunu yerinə yetirmək üçün şans hesab edib. "News.am"ın yazığına görə, müxalifət partiyasının sədri baş nazir olmaq istəyini Ermənistan hakimiyyətinə böhrandan alternativ çıxış yolu kimi təqdim edib: **"Mən baş nazirə və komandasına baş nazir seçilməyimlə bağlı memorandum imzalamağı təklif etdim".**



E.Marukyanın təklifinə görə, parlamentdə təmsil olunan 3 siyasi qüvvə arasında baş nazir postuna öz namizədlərini irəli sürməmək üçün razılıq əldə edilir, 2021-ci ilin 1 oktyabrında parlament buraxılır və növbədənkənar seçkilərə gedilir. Qeyd edək ki, E.Marukyanın bu təklifini bir çox ekspertlər ölkə daxilində ciddi ittihamlarla üz-üzə qalan Paşinyanın xilası üçün hazırlanmış plan kimi dəyərləndirirlər.

*Son günlər Paşinyanın komandasında yeni istefa dalğasının başlanması müşahidə edilir*

Bu arada "168.am" saytının "Pressing" proqramına müsahibə verən Ağası Yenokyan Ermənistandakı mövcud vəziyyəti dəyərləndirərkən deyib ki, biz ölkəni idarə edə bilməyən hakimiyyətə və bu hakimiyyəti devirə bilməyən müxalifətə sahib olduğumuzu görürük: **"Hakimiyyətlərin artıq heç bir mənəvi və siyasi haqqı yoxdur, müxalifət isə hökumətə mitinqlərlə mənəvi təzyiq göstərməyə çalışır. Hakimiyyətdəkilər şərəf, vicdan, ləyaqət kimi mənəvi dəyərlərə malik olmadıqları üçün onlara mənəvi təzyiq göstərmək mənasız vaxt itkisidir, əlavə yollar axtarmaq lazımdır".**

Ekspert onu da bildirib ki, müharibədəki itkilərin 5000-dən çox olması ortaya çıxdığı halda, baş verəcək iğtişaşlardan qorxan Paşinyan hakimiyyəti "hərbi əsir" məsələsi ilə manipulyasiya edir.

*Müharibədəki itkilərin həqiqi sayı ortaya çıxdığı halda, baş verəcək iğtişaşlardan qorxan Paşinyan "hərbi əsir" məsələsi ilə manipulyasiya edir*

Göründüyü kimi, müharibədən məğlubiyyətlə çıxmış Ermənistanda bütün sahələr iflic vəziyyətinə düşdüyü üçün çıxış yolu tapa bilməyən baş nazir N.Paşinyan vaxt qazanmaq istəyir. Amma cəmiyyətin əksər hissəsinin istefasını tələb etdiyi halda kreslodan əl çəkməyən Paşinyanın uğur qazanacağı şübhəlidir. Ekspertlərin fikrincə, Paşinyan Ermənistanı məhvə aparır, çünki hələ də apatiya vəziyyətindən çıxa bilməyən cəmiyyət onun ölkəyə vurduğu zərərin təsirini indi hiss etməsə də, yaxın gələcəkdə mütləq görəcək.

**Qaşqay ZİYƏDDİNOĞLU**


Təsisçi: Yeni Azərbaycan Partiyası

Baş redaktor: Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66

Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul: Zahid İLHAMOĞLU